*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 30 avqust 2014-cü il | № 66 (1883) | Qiyməti 25 qəpik

## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Bakının Xəzər rayonunun Binə qəsəbəsindəki 121 nömrəli orta məktəbin yeni korpusunun əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurma işləri hər il olduğu kimi bu il də davam etdirilir.*

*Prezident İlham Əliyev korpusda yaradılan şəraitlə yaxından tanış oldu.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixael Labendanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

✓ *Avqustun 26-da Azərbaycan Xalça Muzeyinin yeni binasının açılış mərasimi olub.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*

*Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən muzey üçün xüsusi bina tikilməsi qərara alınıb və 2008-ci il mayın 15-də Dənizkənarı Milli Parkın ərazisində binanın təməlqoyma mərasimi keçirilib.*

*Muzeyin yeni binasının yaradılması işində Heydər Əliyev Fondunun və UNESCO-nun müvafiq dəstəyi və köməyi olub.*

* * *

✓ *Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva paytaxtın Nəsimi rayonundakı 23 nömrəli tam orta məktəbin binasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak ediblər.*

*Təhsilin yeni mərhələyə qədəm qoyması, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır. Beləliklə, son illərdə ölkədə yüzlərlə məktəb binası və əlavə korpuslar tikilib, minlərlə məktəb binası əsaslı təmir edilib.*

*23 nömrəli tam orta məktəbin binasının əsaslı surətdə yenidən qurulması bir daha təsdiqləyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir.*

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz



***Məlum olduğu kimi, avqustun ilk günləri düşmənlə təmas xəttində müşayiət olunan ciddi gərginliyi ilə yadda qaldı. Ermәni silahlı birləşmələri tərəfindən mövqelərimizə kəşfiyyat-diversiya hücumları törədildi və yenə də Azərbaycan Ordusunun igid döyüşçüləri düşmənə layiqli cavabını verdi. Ermənilər xeyli itki verərək geri çəkilməyə məcbur oldu. Atəşkəsin pozulması ilə nəticələnən bu təxribatların qarşısının alınması zamanı bizim tərəfdən də itkilər oldu, amma əsgər və zabitlərimiz düşmən qarşısında qətiyyət və şücaət göstərdilər.***

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev avqustun 6-da Ağdam və Bərdə rayonlarına səfəri çərçivəsində düşmənlə təmas xəttində yerləşən hərbi hissəyə də baş çəkdi. Burada ordumuzun müdafiənin ön xəttindəki vəziyyəti ilə yaxından maraqlanan ölkə başçısı düşmənin təxribatlarının qarşısının alınmasında hünər və şücaət göstərmiş hərbi qulluqçularla görüşdü və onlara medallar təqdim etdi. Ümumiyyətlə, Azərbaycan Prezidenti cənab İlham Əliyev sərhəd bölgələrinə səfərləri zamanı ənənəvi olaraq ön xətdə yerləşən hərbi bölmələrə baş çəkir və döyüşçülərimizin qayğıları ilə yaxından maraqlanır. Əlbəttə, dövlət rəhbəri əsgərlərlə bir süfrə arxasında səmimi söhbət edəndə, döyüşçünün sözünü, arzusunu dinləyəndə Azərbaycan əsgəri özünü daha qürurlu və məğlubedilməz hesab edir. Axı Ali Baş Komandan onun əlini sıxır, onu dinləyir. Bu, hər bir döyüşçümüzü böyük qələbəmizə ruhlandıran ən başlıca amildir, desəm, səhv etmərəm. Yeri gəlmişkən, bir məsələni də qeyd edim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov da cəbhə bölgələrinə səfərləri zamanı səngərdə bilavasitə əsgərlərlə görüşür, qayğı və problemlərini əsgərin öz dilindən eşitməyə çalışır. Bax, bu amillər döyüşçülərə yüksək əhval-ruhiyyə, qələbə əzminin, inam hisslərinin aşılanması baxımından çox əhəmiyyətlidir.

Prezident İlham Əliyev Ağdam rayonuna səfərində də vaxt tapıb ön xəttə getdi və döyüşçülərimizlə görüşdü. Həm öz adından, həm də bütövlükdə Azərbaycan xalqı adından onlara dərin minnətdarlığını bildirdi. "...Bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşmişlər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz".

Azərbaycan dövlətinin başçısı döyüşçülərlə söhbətində bir vacib məqamı qeyd etdi ki, əsgərlərimizin son döyüşlərdə göstərdikləri qəhrəmanlıq nümunələri xalqımızın apardığı mübarizənin ədalətli olmasından irəli gəlir. Doğrudan belədir, axı biz işğalçı deyilik, heç bir dövlətin ərazisində gözümüz yoxdur. Biz yalnız öz torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizə aparırıq və bu mübarizə əzmini heç bir qüvvə sarsıda bilməz. Prezident İlham Əliyev: "Ermənilər özləri etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Amma biz öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik və etməliyik".

Qəhrəmanlıq göstərmiş xüsusi təyinatlı döyüşçülərə medalları təqdim edən Ali Baş Komandan sonra üzünü onlara tutaraq bildirdi ki, "siz ordumuzun inkişafında böyük xidmətlər göstərmisiniz. Bizim, əlbəttə, bütün hərbi hissələrimizdə xidmət edən əsgər, gizir və zabitlər böyük qiymətə layiqdirlər. Ancaq sizin əməliyyatlarınızın, xüsusi təyinatlı bölmələrdə xidmət edən əsgər və zabitlərimizin xüsusi xidməti vardır. Siz hər an öz həyatınızı risk altına atırsınız, böyük qəhrəmanlıq göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və istəyirəm Azərbaycan xalqı da bilsin ki, bizim necə gözəl döyüşçülərimiz, qəhrəmanlarımız var".

Azərbaycan döyüşçüsünün gələcəkdə də yeni fədakarlıqlar göstərəcəyinə əminliyini ifadə edən ölkə başçısına görə, doğma torpaqlarımızı qorumaq və işğalda olan ata-baba ocaqlarımızı tezliklə azad etmək istəyi hərbçilərimizi qələbə qazanmağa ruhlandıran əsas şərtdir. "Biz Ağdam şəhərini bərpa edəcəyik. İşğal edilmiş, dağıdılmış bütün şəhərlərimizi bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq".

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Xarici İşlər Nazirliyi mətbuat xidmətinin açıqlaması

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ABŞ Dövlət Departamenti və Fransa Xarici İşlər Nazirliyinin Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun üzvü Karen Petrosyan ilə əlaqədar açıqlamalarına münasibət bildirən bəyanat yayıb.***

Bəyanatda deyilir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumat verdiyi kimi, Karen Petrosyan Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun tərkibində təxribat törətmək məqsədilə Ermənistan-Azərbaycan sərhədi istiqamətindən Azərbaycan ərazisinə daxil olmuşdur. Kəşfiyyat-diversiya qrupunun hücum və təxribatının qarşısı Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən alınmış və qrupun tərkibində olan Karen Petrosyan əsir düşmüşdür. Həmçinin nazirliyin məlumatında bildirilib ki, naməlum və qəfil şəraitdə keçinən Karen Petrosyanın ölümünün səbəbləri tibbi ekspertlər tərəfindən açıq və şəffaf şəkildə araşdırılmış və onun ölümü barəsində dərhal Beynəlxalq Qırmızı Xaç Komitəsinə məlumat verilmişdir.

Azərbaycandan fərqli olaraq, bu ölkənin ərazilərini işğal edən Ermənistan tərəfindən əsir və girovluqda olan Azərbaycan vətəndaşlarına münasibətdə beynəlxalq humanitar hüquq, xüsusilə "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə konvensiyalarının müddəaları daimi olaraq kobud şəkildə pozulur. Ermənistan tərəfindən əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarının kütləvi şəkildə öldürülməsi, onlara dəhşətli işgəncələr verilməsi, mənəvi əzablar, onların amansız və insan ləyaqətini alçaldan rəftara məruz qoyulması, özünüöldürmə həddinə çatdırılması, yaxud verilmiş işgəncələr nəticəsində vəfat etməsi kimi dəhşətli əməllər törədilmişdir.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Ermənistan tərəfindən əsir və girov götürülmüş 4000-dən artıq azərbaycanlının taleyi haqqında bu günə qədər heç bir məlumat verilmir.

Bəyanatda qeyd edilir ki, öz doğma torpaqlarını və ata-analarının məzarını ziyarət edən Şahbaz Quliyev və Dilqəm Əsgərovun Ermənistan tərəfindən xüsusi qəddarlıqla işgəncələrə və alçaldıcı rəftara məruz qalması, Həsən Həsənovun isə qətlə yetirilməsi, işğalın ilk günündən Ermənistan silahlı qüvvələrinin mütəmadi əsasda qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhəd xətti boyunca mülki şəxslərin, o cümlədən azyaşlı uşaqların hədəfə alınması, Ermənistan silahlı qüvvələrinin 31 iyul - 1 avqust tarixində qorxaq və alçaqcasına törətdiyi terror-təxribat əməli və 7 avqust tarixində bunun davam etdirilməsinə cəhd Ermənistanın beynəlxalq hüquq, insaniyyət və mənəviyyatdan kənar siyasətinin göstəricisidir.

Bütün bunların müqabilində Ermənistanın Karen Petrosyanın işinin məqsədyönlü şəkildə şişirdilməsi və ona siyasi don geyindirilməsi cəhdləri bu ölkənin törətdiyi vəhşilikləri ört-basdır etmək məqsədi daşıyır.

ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ və Fransanın Ermənistanın bu kimi qeyri-insanı rəftarına, o cümlədən Şahbaz Quliyev, Dilqəm Əsgərov və Həsən Həsənovun taleyinə, eləcə də 31 iyul-1 avqust tarixində Ermənistan tərəfindən törədilmiş terror-təxribat əməlinə biganə qalaraq, Ermənistan və radikal erməni diasporunun təbliğat maşınının təsiri altında verdikləri bu bəyanat anlaşılmaz və qəbuledilməzdir.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin bu kimi həssas məsələlərdə birtərəfli və qərəzli fəaliyyət nümayiş etdirmələri Azərbaycan cəmiyyəti tərəfindən də birmənalı qarşılanmır.

Minsk qrupunun həmsədr ölkələri, eləcə də BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi üzərlərinə düşən öhdəlik və məsuliyyətə uyğun olaraq, bu kimi bəyanatların əvəzinə BMT-nin Nizamnaməsi, Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı əsasında tezliklə işğalın nəticələrinin aradan qaldırılması və münaqişənin həllinin təmin olunmasına doğru səylərini artırmaları və səfərbər etmələri daha məqsədəuyğun olardı.

Bəyanatda deyilir: "ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi ABŞ və Fransanı münaqişənin həlli ilə əlaqədar prinsipiallıq nümayiş etdirməyə, başsağlığı və narahatlıq ifadə edərkən ikili və qərəzli olmamağa çağırırıq".

**AzərTAc**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Rumıniyaya rəsmi səfəri











***Avqustun 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılıq etdiyi nümayəndə heyəti Rumıniya Milli Müdafiə naziri cənab Mirça Duşanın dəvəti ilə bu ölkəyə rəsmi səfərə gedib.***

Əvvəlcə rəsmi heyət Buxarest şəhərindəki "Tey Parkı - Heydər Əliyev Xiyabanı"nda Ümummilli Liderin büstünün önünə əklil və tər çiçəklər qoyaraq Ulu Öndərin əziz xatirəsinə yüksək hörmət və ehtiramlarını ifadə ediblər.

Sonra Müdafiə naziri Zakir Həsənovun Rumıniya Milli Müdafiə naziri cənab Mirça Duşa tərəfindən təntənəli qarşılanma mərasimi keçirilib.

Görüş zamanı ölkələrimiz arasında hərbi əməkdaşlığın əsas istiqamətləri və perspektivləri müzakirə edilib. Hərbi-texniki, hərbi təhsil sahələrində, dağ təlimi, təlim mərkəzlərinin birgə istifadəsi, birgə təlimlərin keçirilməsi barədə razılıq əldə olunub. Həmçinin, regional təhlükəsizlik məsələləri müzakirə edilib. Şərqi Avropada və Cənubi Qafqazda cərəyan edən hadisələr ətrafında fikir mübadiləsi aparılıb, hər iki ölkənin ərazi bütövlüyünün dəstəkləndiyi bir daha vurğulanıb.

Görüşdən sonra Müdafiə nazirlərinin media nümayəndələri ilə görüşü keçirilib, tərəflərin bütün mövqelərinin üst-üstə düşdüyü diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan nümayəndə heyəti parlamentin deputatlar palatasının sədri Valeriu Zqonea ilə görüşüb.

Görüşdə əməkdaşlığın indiki vəziyyəti yüksək qiymətləndirilərək ölkələr arasında yeni imkanların mövcudluğu barədə fikirlər səsləndirilib.

Avqustun 28-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılıq etdiyi nümayəndə heyəti Rumıniyanın iqtisadiyyat naziri Konstantin Nitsa ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında hərbi-texniki əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Rumıniyanın müdafiə sənayesi şirkətlərinin imkanları barədə məlumat verilib.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığı daha da inkişaf etdirmək üçün hər iki tərəfin geniş imkanlara malik olduğu xüsusi vurğulanıb.

Bununla da Azərbaycanın Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətinin Rumıniyaya ikigünlük səfəri başa çatıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Şəxsi heyəti qarşıda duran mühüm vəzifənin yerinə yetirilməsinə səfərbər etmək əsas vəzifəmizdir"

## Müdafiə naziri general-polkovnik Zakir Həsənov bölük komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin təkmilləşdirmə kursunun ilk məzunları ilə görüşüb



***Ölkəmizin müstəqilliyinin və suverenliyinin qarantı olan Silahlı Qüvvələrimizdə şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi hazırkı mərhələdə ordu rəhbərliyinin qarşısında dayanan əsas vəzifələrdəndir. Ermənistan və Azərbaycan arasında illərdən bəri davam edən müharibə şəraiti və münaqişənin həll edilməməsi nəticə etibarilə torpaqlarımızın işğaldan hərbi yolla azad edilməsi zərurətini reallaşdırır. Belə bir halda orduda şəxsi heyətin döyüş ruhunun artırılmasına xüsusi önəm verilməlidir. Bu baxımdan Silahlı Qüvvələrimizdə təlim-tərbiyə sisteminin təkmilləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin günün tələbləri səviyyəsində qurulması komandirlərin, şəxsi heyətlə iş üzrə zabitlərin daim diqqət mərkəzində olmalıdır.***

Avqustun 29-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Təlim və Tədris Mərkəzində şəxsi heyətlə iş üzrə bölük komandiri müavinlərinin təkmilləşdirmə kursunun ilk məzunları ilə görüşüb. Öncə tədbir iştirakçılarını salamlayan nazir proqram xarakterli çıxışında orduda aparılan son islahatlardan, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji tərbiyəsində qarşıda duran mühüm vəzifələrdən danışıb.

Müdafiə naziri çıxışında qeyd edib ki, hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Ali Baş Komandana,Vətənimizə, torpağımıza, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə əks etdirən Azərbaycan Ordusunun şəxsi heyəti hər an qələbəyə hazır ola bilər.

- Müasir mərhələdə Azərbaycan dövlətinin artan siyasi-iqtisadi uğurları, daxili və xarici siyasətimizdə qazanılan genişmiqyaslı nailiyyətlər ölkədə bütün sahələrin, həmçinin ordu quruculuğunun inkişaf etdirilməsinə möhkəm zəmin yaradır, - deyə general-polkovnik Zakir Həsənov bildirib. - Bu gün dövlət rəhbərliyi, şəxsən Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən orduya böyük diqqət və qayğı vardır. Həm Silahlı Qüvvələrimizin bölmələri müasir silah və hərbi texnikalarla təmin edilir, həm də hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Hər kəs yaxşı bilməlidir ki, bu gün ordumuzun şəxsi heyətini qarşıda duran mühüm vəzifənin icrasına-torpaqlarımızın işğaldan azad edilməsinə səfərbər etmək qarşımızda dayanan ən mühüm vəzifədir. Bu baxımdan şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyan komandir və zabitlərin üzərinə böyük məsuliyyət düşür. Orduda önəm verilən əsas şərt gənc döyüşçülərin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsidir. Bu məqsədlə şəxsi heyətin şüuruna dövlətin və xalqın mənafeyini müdafiə etmək hissləri aşılanmalıdır. Hər bir gənc döyüşçü hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərindən dərk etməlidir.



Müdafiə nazirinə görə, əsgər heyəti ilə aparılan təlim-tərbiyə prosesində ən müasir metod və üsullardan istifadə edilməlidir. "İlk növbədə qeyd etmək istərdim ki, əsgərin tərbiyəsinə cavabdehlik daşıyan zabit bütün mənəvi-əxlaqi keyfiyyətləri ilə hərbi kollektivdə nümunə olmalıdır. Bölmə komandirlərinin şəxsi heyətlə iş üzrə müavini bilməlidir ki, bu gün ordu rəhbərliyi ona böyük etimad göstərib. Onların vəzifələri bir pillə artırılıb, yəni, o, öz komandiri ilə bir səviyyədə dayanır. Mənə elə gəlir ki, bu göstərilən etimad həmin zabitin vəzifə məsuliyyətini qat-qat artıracaqdır. O, öz üzərində daha səylə çalışmalı, hərbi bilik və vərdişlərini artırmalı, qarşısında dayanan tapşırıqların məsuliyyətini dərindən dərk etməlidir.

Xalqımızın illərdən bəri üzləşdiyi münaqişənin mahiyyəti şəxsi heyətə izah edilməli və doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizənin bizim ədalətli işimiz olduğu aşılanmalıdır. Yəni əsgərlərimizin müharibəyə hazır olmasının əsas zərurəti yalnız xalqımızın ədalətli mübarizəsindən - doğma torpaqlarımızı işğaldan azad etmək zərurətindən irəli gəlir. Əgər işğalçı dövlət ölkəmizin ərazi bütövlüyünün sülh yolu ilə təmin olunmasına razılaşmayacaqsa, onda Azərbaycan hərbi yolla bu məsələnin həllində israrlı olacaqdır."

Şəxsi heyətin milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə edilməsinin vacibliyinə toxunan nazir qeyd edib ki, xalqımızın qəhrəmanlıq ənənələri əsgərlərə layiqincə təbliğ edilməlidir. "Qoy hər bir əsgər qədim xalqın nümayəndəsi olduğunu dərindən dərk etsin, qəhrəmanlarımızı yaxşı tanısın, böyük dövlət xadimi, ulu öndər Heydər Əliyevin irsini mükəmməl öyrənsin. Həyatda da belədir, hər kəs cəmiyyətdə özünə layiqli yer tutmaq istəyirsə, dahi insanların ömür yolunu özünə örnək bilməlidir. Bu mənada ümummilli liderimizin mənalı ömür yolu və tarixi fəaliyyəti Silahlı Qüvvələrimizin şəxsi heyətinə ən layiqli örnəkdir”.

- Biz çalışmalıyıq ki, Silahlı Qüvvələrimizin şəxsi heyətinin qarşısına qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirlməsində hər bir zabit üzərinə düşən məsuliyyəti dərindən başa düşsün və öz vəzifə borcunu yerinə yetirsin,- deyə Müdafiə naziri çıxışına davam edib. - Ordumuzun mühüm döyüş vəzifəsinin icra edilməsində şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da az əhəmiyyət daşımır və bu sahəyə cavabdeh olan zabitlər məsuliyyət hissini daha dərindən hiss etməlidirlər. Məncə, şəxsi heyətin döyüş ruhunu artırmaq üçün bölüklər səviyyəsində bu vacib işə cavabdehlik daşıyan zabitlərin fərdi hazırlığına ciddi fikir verilməlidir. Ümumiyyətlə, hər bir zabit öz hərbi biliyi, davranışı və əxlaqi keyfiyyətləri ilə şəxsi heyətə nümunə olmalıdır. Şəxsi igidlik nümunələri göstərən hərbi qulluqçular hamıya örnəkdir. Məsələn, bu yaxınlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin təxribat xarakterli cəhdlərinin qarşısının alınmasında bəzi hərbi qulluqçularımız xüsusilə fərqlənmişdilər. Belə qəhrəmanlıq nümunələri başqa hərbi bölmələrin şəxsi heyətinə də təbliğ edilməlidir.

Görüşün sonunda Müdafiə nazirinin şəxsi heyət üzrə müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev nazirin proqram xarakterli çıxışının, dəyərli tövsiyə, göstəriş və tapşırıqlarının zabitlər üçün son dərəcə əhəmiyyətli olduğunu vurğulayıb. O, Müdafiə nazirini əmin edib ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabitlər qarşıya qoyulan bu mühüm vəzifə və tapşırıqların uğurla yerinə yetirilməsində dəyərli töhfələrini əsirgəməyəcək və şəxsi heyəti qarşıda duran mühüm vəzifənin yerinə yetirilməsinə səfərbər edəcəklər.

**Mayor
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu",
fotolar
Vüsal HƏMİDOVUNDUR**

## Hərbi and

# Vətən oğullarının sədaqət andı

## Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində andiçmə mərasimi keçirilib

***Ötən bazar günü Silahlı Qüvvələrimizin hərbi hissələrində bayram əhval-ruhiyyəsi vardı. Müxtəlif bölgələrdən valideynlər, gənc əsgərlərin yaxınları səhərin erkən çağlarından hərbi hissələrə üz tuturdu. Mərasimdə iştirak etmək üçün hərbi hissələrimizdən birinə gəlmişdim. Burada da xeyli insan toplaşmışdı.***





- Hərbi andın qəbul edilməsi vətənpərvərlik baxımından da böyük əhəmiyyət kəsb edir, - təcrübəli zabit Firdovsi Məmmədov deyir. - Hər bir şəxs and içməklə özünün ən nəcib hisslərini, müstəqil Vətənimizə sonsuz məhəbbətini, düşmənə nifrətini ifadə etmiş olur. Hərbi and eyni zamanda gənclərin üzərinə məsul vəzifələr qoyur, bütün çətinliklərə sinə gərməkdə yardımçı olur, onlara mənəvi ruh verir. Onların hər biri Vətənə xidmət etməyi özlərinə şərəf bilirlər.

- Hələ gənc əsgərlər hərbi hissəyə qəbul ediləndə onlarla fərdi söhbətlər aparılıb, orta məktəb partasından dünən ayrılmış gənclərin hansı duyğular keçirdiyi, onların ailə vəziyyəti və problemləri zabitlər tərəfindən öyrənilib, - kapitan Vüqar Niyazəliyev deyir. - Bu, gənc əsgərlərin hər birinin fərdi xüsusiyyətlərinin, ovqat və istəklərinin xidmət prosesində nəzərə alınması üçün zəruri addım kimi dəyərləndirilir.

Budur, hərbi qulluqçular üçün hazırlıq komandası verilir. Zabit Daşqın Bənnayev məruzə etdikdən sonra Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant Rövşən Əkbərov şəxsi heyəti andiçmə mərasimi münasibətilə təbrik edir. Hərbi hissənin vüqarla dalğalanan döyüş bayrağı meydana gətirildikdən sonra gənc əsgərlərin andiçmə mərasimi başlanır. Mikrofonla səsləndirilən Hərbi andın mətnini gənc əsgərlər ucadan təkrar edirlər.

Andiçmə bitdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni oxundu. Mərasim iştirakçıları çıxış edərək gənc əsgərlərə öz ürək sözlərini bildirdilər. Öncə söz alan general-leytenant Rövşən Əkbərov kollektivin gənc üzvlərini salamlayaraq Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini çatdırdı.

Binəqədi rayonu İcra Hakimiyyətindən gəlmiş nümayəndələr, valideynlərdən İkinci Dünya müharibəsi veteranı Sadıq Hümbətov, respublikanın əməkdar müəllimi Səlim Əzimov tribunaya qalxıb gənc əsgərlərə öz öyüd və nəsihətlərini çatdırdılar, Vətənə xidmət etməyin hər kəs üçün şərəf işi olduğunu söylədilər və onlara qarşıdakı xidmət dövründə müvəffəqiyyət arzuladılar.

Hərbi andı qəbul etməyin hər bir gəncin həyatında unudulmaz məqam olduğunu qeyd edən gənc əsgər Mahir Quliyev bildirdi ki, bu gündən onlar üzərlərinə böyük vəzifə götürüblər və bu vəzifəni can-başla yerinə yetirəcəklər.

Mərasimdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları olan qadınlar da Vətənə sədaqət andı içdilər. Hazırlıq kursunu müvəffəqiyyətlə başa vurmuş qadın hərbi qulluqçularına ilk hərbi ixtisas təhsili haqqında sertifikatların, hərbi ixtisas üzrə dərəcənin və tutduqları hərbi vəzifələrə uyğun rütbələrin verilməsi barədə hərbi hissə komandirinin əmri oxundu. Eyni zamanda xidmətdə fərqlənmiş qadın hərbi qulluqçular fəxri fərmanla və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

Övladlarının bayramına gəlmiş valideynlər üçün gənc əsgərlərin tribuna qarşısından təntənəli keçidi ən maraqlı və unudulmaz məqamlardan oldu. Məğrur yerişli, şux duruşlu Azərbaycan əsgərləri birlikdə hərbi hissənin əsgər marşını hərbi orkestrin müşayiətilə ifa etdilər.

Andiçmə mərasiminin sonunda valideynlərlə gənc əsgərlərin görüşü təşkil edildi.

**Əbülfət QASIMOV,**
**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

---



Xəzər özü boyda bir möcüzədi. Hərdən ləpələri sahillə pıçıldaşır, hərdən aşıb-daşır...

Xəzər bu gün elə sakitdi ki. Beş-on addım yaxınlaşsan ləpələrinin pıçıltısını eşidərsən. Bu, adi pıçıltı deyil, duyana əvəzi olmayan könül xoşluğudu. Diqqətlə dinləsən çox şey duyarsan. Sənə çox mətləblərdən söz açar. Yüz-yüz illərin o üzündə qalanlardan danışar, gecələr Qız qalasına könül sirdaşı olmasından, daha nələrdən, haralardan söhbət açar. Ona yenidən vurulursan...

Adamların axını əlimdən tutub məni də hərbi hissəyə tərəf çəkir. Ordu quruculuğunda təntənəli tədbir olan gənc əsgərlərin andiçmə mərasiminə tələsirəm. ...Azərbaycan Respublikasının Dövlət Himni səslənir. Harda eşitsək ayaq saxladığımız, qürurlandığımız, heysiyyətimizə həmayil bildiyimiz Himn hamının ürəyini coşdurur. Xəzər kimi...

Gənc əsgərlər and içir: "Mən, Azərbaycan Respublikasının vətəndaşı...". Duyğusal kəlmələr toplaşanların ürəyini titrədir. Göy üzünü bunca aydın, bunca təmiz görməmişdim. Elə bil Xəzər də duyğulanır; ləpələrin pıçıltısını duyuram. Bunu tədbirin təntənəsinə Xəzərin xeyir-duası bilirəm. Və insafən haqlıyam...

Əsgər atası olmağıyla qürurlanan Vahid Babayev bu tədbirin ailə miqyasını aşdığını, dövlətçilik tədbiri kimi dəyərli olduğunu bildirir və gənc əsgərlərə nümunəvi xidmət arzulayır.

Gənc əsgər Əhmədiyyə Babayevin çıxışı əsgər atasının tövsiyələrinə cavab kimi səslənir:

- Mən əsgər yoldaşlarım adından, şəxsən öz adımdan söz verirəm ki, komandirlərimizin, zabitlərimizin hər bir əmr və göstərişini Vətənin əmr və göstərişi biləcəyik, onlara sözsüz əməl edəcəyik, nümunəvi xidmətimizlə valideynlərimizə başucalığı gətirəcəyik...

Komandanlıq adından çıxış edən 1-ci dərəcəli kapitan Natiq Bağırov son dövrlərdə Silahlı Qüvvələrimizdə aparılan əsaslı islahatlardan, Vətənin keşiyində dayanmağın müqəddəsliyindən danışaraq deyir:

- Hər bir hərbi qulluqçu vəzifə borcunu şərəflə yerinə yetirməlidir. Siz vəzifə borcunuzun məzmununu Hərbi Andda ifadə elədiniz. Əminəm ki, içdiyiniz anda sadiq qalacaqsınız. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə bölgələrində əsgərlərlə görüşləri haqqında sizin də məlumatınız var və bu görüşlərdən o əsgərlər kimi siz də ruhlanıbsınız.

Sizə nümunəvi xidmət üçün bütün şərait yaradılacaq. Hərbi xidmətə alışana kimi çətinliklərlə də üzləşə bilərsiniz. Onda komandirlərinizə, zabitlərə müraciət edərsiniz. İnanıram ki, hər biriniz Vətənin arzuladığı kimi əsgər olacaqsınız...

Əsgər atası ehtiyatda olan polkovnik Xudat Hüseynov da zamanında həqiqi hərbi xidmətdə olub. Təsadüf elə gətirib ki, oğlu Tural da onun xidmət etdiyi qoşun növündə xidmətə başlayır.

- Şadam ki, oğlum Vətənə borcunu yerinə yeririr. Mən döyüşlərdə olmuşam. Təbii ki, bu haqda Turala da danışmışam. O da mənim kimi, sizlər kimi, hamı kimi torpaqlarımızın azad edilməsinin həsrətindədir və Ali Baş Komandanın əmri olarsa, əməliyyatlarda o da iştirak eləməyə hazırdır...

Tədbir başa çatsa da, əsgər babası Həmid Quliyevin söhbəti elə bil tədbirin davamıdır; səhərdən bəri vaxtın gec ötüşdüyünü güman edən valideynlər də, valideynləri ilə görüşəcəyi anın həsrətində olan gənc əsgərlər də onun söhbətinə alüdə olurlar:

- Mən iki dəfə əsgər olmuşam. 1963 - 1966-cı illərdə Sovet ordusunda, 1993-cü ildə isə öz ordumuzda. Onda Sibirdə xidmət etmişəm, burda Ağdamda. İkinci qrup Qarabağ müharibəsi əlili olsam da, günü bu gün də özümü əsgər hesab edirəm. Ali Baş Komandanımız hücum əmri verərsə mən də döyüşməyə hazıram. Təki torpaqlarımız azad edilsin. Əziz balalarım, mən bu yaşımda torpaqlarımızın harayına getməyə hazıramsa, bu gün sizin sıranıza daxil olan nəvəmin atası hazırdırsa, siz buna daha böyük sevgilərlə hazır olmalısınız. Komandirlərinizin layiqincə əmr və göstərişlərinə əməl edin...

Bir ananın baxışlarından oxuduğum mətləb misralanaraq Xəzərin dalğalarına qarışır:

Vaxtsız bir gül solarsa,
Alışıb-yanasıyam.
Qürurum dağlarcadı:
- Mən əsgər anasıyam!..

Öyrənirəm ki, Səmayə xanım Qazaxdan gəlib, müəllimədi. Onun da oğlu and içən əsgərlərin sırasındadı. Baxışlarının dərinliyindən boy göstərən həyəcanı sezmək çətin deyil. "Mən anayam, istər-istəməz narahat olacam. Bu narahatlığın ömrü on səkkiz aydı. Qürurum isə mənimlə yaş yaşayacaq. Axı oğlum Vətənə övlad borcunu yerinə yetirir!" - deyir ana...

Göy üzü ilə Xəzərin rənginin eyniliyini elə bil ilk dəfə görürəm. Gözlərimi gah Xəzər çəkir, gah da göy üzü. Heç birisi davamlı olmur. Əsgərlə əsgər anasının görüşünə baxır, baxıram. Oğul ananın qolları arasında görünməz olub. Bu görüş mənə bir ayrı görüşü xatırladır: işğaldan azad ediləndə həsrət qollar torpaqlarımızı belə qucaqlayacaq. Xəzər də o görüşün həsrətindədi. Bizlər kimi...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

---

***"N" hərbi hissəsində andiçmə tədbirini giriş sözü ilə polkovnik-leytenant Akif Ağayev açdı. Qonaqları salamlayan hərbi hissə komandiri gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırdı. Zabit bildirdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində möhkəmlənib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Hazırda Azərbaycan Ordusunun müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəratinin yaxşılaşdırılması istiqamətində ciddi islahatlar həyata keçirilir.***



Hərbi hissə komandiri valideynlərə gözaydınlığı verdi, onlara Vətənə sədaqətli oğul tərbiyə etdikləri üçün minnətdarlığını bildirdi. Valideynlərə söz verdi ki, övladlarının doğma Azərbaycanımız üçün layiqili bir vətəndaş kimi yetişməsi üçün əllərindən gələni edəcəklər.

Sonra polkovnik Fazil Ağalarov da gənc əsgərləri təbrik edib, onlara uğurlar arzuladı. Gənclərə Vətənə şərəflə xidmət etməyi və hərb işinə dərindən yiyələnməyi, komandirlərin əmr və tapşırıqlarını vaxtında və sözsüz yerinə yetirməyi tövsiyə etdi.

Gənc əsgərlər adından əsgər Sarvan Xəlilov təbriklərə qoşuldu. Bu şərəfli gün münasibəti ilə həm silahdaşlarını, həm də tədbir iştirakçılarını təbrik etdi. Əsgər yoldaşlarına bu şərəfli yolda dözümlü olmağı, ata - babalarımızdan əmanət qalan torpaqlarımızı qorumağın onlara borc olduğunu bildirdi.

Valideyn Yelman Bayramov da sevincini tədbir iştirakçıları ilə bölüşdü. Bildirdi ki, övladının Vətənin xidmətində dayanmasından iftixar hissi duyur.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra əsgərlər valideynləri ilə görüşdülər. Bu zaman çox duyğulu anlar yaşandı. Valideynlərdən İlqar Həmzəyev də bu günlə bağlı ürək sözlərini bölüşdü:

- Oğlum Yusif Həmzəyev həmişə deyirdi ki, bir gün mən də əsgər olacağam. İndi arzusuna çatdığını düşünürəm. İşğalda olan torpaqlarımızın azad edilməsində iştirak etsə, bu, mənimçün xüsusi sevinc olar. Vətənə layiqli övlad olmağını arzu edirəm.

Əsgər Əfsun Arzumanlının atası, Qarabağ veteranı Nurəhməd Arzumanlının da ürək sözləri vardı. Əslən Füzuli rayonundan olan Nurəhməd kişi müharibənin ağrılı-acılı günlərini yaşadığını, işğalda olan torpaqlarımıza görə düşmənə nifrətinin hər gün artdığını bildirdi.

- Övladımı əsl vətənpərvər kimi böyütmüşəm. Ən əsası Vətən üçün böyütmüşəm, mənim yox, Azərbaycanın oğludur, - deyə keçmiş döyüşçü qeyd etdi.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

---

***"N" hərbi hissəsində keçirilən andiçmə mərasimi əvvəlkilərdən fərqli olaraq daha yaddaqalan oldu.***

Nəzarət-buraxılış məntəqəsini keçib hərbi hissəyə daxil olanda bir çox məqamlar diqqəti cəlb etməyə bilməzdi. Xüsusilə, üzlərindən sevinc, həyəcan hissi duyulan ata və analar, baba-nənələr, bir sözlə, hamı bir başqa ovqatda idi.



Polkovnik Qədir Nəsibovun raportu qəbul etməsi ilə gənc əsgərlərin andiçmə mərasimi başlandı. Hərbi hissə komandiri şəxsi heyəti, valideynləri və qonaqları salamladı.

Gənc əsgərlər təntənəli surətdə and içərək, Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə həmişə hazır olacaqlarına, bu yolda canlarını və qanlarını əsirgəməyəcəklərinə, hərb işini vicdanla öyrənəcəklərinə söz verdilər.

Gənc əsgərlərin andiçməsindən sonra hərbi orkestrin müşayiətilə Dövlət himni oxundu.

Gənc əsgərlərə müraciət edən komandir çıxışını " Vətən sizə, xalqımız sizə güvənir, siz fəxr etməlisiniz ki, Azərbaycan əsgərisiniz" deyə bitirdi.

Gənc əsgər Pərviz Dadaşov öz ürək sözlərini ifadə edərək dedi ki, bu gün bizim həyatımızda ən yaddaqalan günlərdən biridir. Yəqin ki, bu müqəddəs günü həmişə xoş təəssüratlarla xatırlayacağıq.

Əsgər atası Arif Hüseynov Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının, Müdafiə naziri geneal-polkovnik Zakir Həsənovun cəbhə bölgələrinə səfərlərini, əsgərlərlə görüşlərini xatırladaraq dedi:

- Mən sevinirəm ki, əsgərlərimiz Ali Baş Komandanın və Müdafiə nazirinin daim diqqət mərkəzindədir, hər addımı da onların qayğılarını hiss edirlər.

Əsgər anası Nərgiz Bayramova Tovuz rayonunun Əlibəyli kəndindən gəldiyini və bu gün 4-cü oğlunun andiçməsində iştirak etdiyini deyərək gənc əsgərlərə mərdlik, qəhrəmanlıq göstərməyi arzuladı.

Tədbirin sonunda hərbi orkestrin marş sədaları altında tribunanın önündən bölmələrin təntənəli keçidi oldu.

Hərbi hissə komandiri valideynlərlə və qonaqlarla görüşdü. Görüşdə valideynlər əsgər yeməkxanasında və yataqxanasında yaradılan yüksək şəraitdən razı qaldıqlarını bildirdilər və komandanlığa minnətdarlıq ifadə etdilər.

Əlindəki əsasına söykənib oturan babaya yaxınlaşıram.

- Əli Ramazanov, Masallı rayonundan gəlmişəm, - deyir. - 4-cü nəvəmin andiçməsidir. Oğul Vətən üçündür. Arzu edirəm ki, bütün əsgərlər sağ-salamat xidmətlərini başa vurub, ata-analarının yanına dönsünlər.

Nəvəsinin andiçmə mərasimində iştirak etmək üçün yayın bu istisində Qusardan Bakıya gəldiyini deyən Zöhrə nənə də söhbətimizdə ölkəmizə sülh, əmin-amanlıq və əsgərlərimizə Vətən sevgisi arzuladı.

Söhbəti hərbi hissənin gənc əsgərlər taborunun komandiri mayor Rəşad Qarayevlə davam etdirirəm. Mayor R.Qarayev vurğuladı ki, bu gün gənclərimiz çox vətənpərvərdirlər. Onlar hərbi vərdişlərə və nizam-intizam qaydalarına yiyələnməklə ordu həyatının sirlərini qısa vaxtda mənimsəyirlər.

Fəal gənc əsgərlərdən Vidadi Rzayev, Ayturan Fətəlisoy, Tural Cəlilov, İlkin Umarov, Elsevər Rəfiyev və başqaları da içdikləri hərbi anda sadiq qalacaqlarına, şərəfli Azərbaycan əsgəri adını həmişə uca tutacaqlarına söz verdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

---



***Mayor Asif Mehdiyev şəxsi heyətin hərbi andiçmə günü münasibəti ilə düzüldüyü barədə hərbi hissə komandirinə məlumat verdi. Polkovnik-leytenant Zaur Abduləzizov şəxsi heyətlə salamlaşdı, gənc əsgərləri əlamətdar gün münasibəti ilə təbrik etdi.***

Hərbi hissə komandirinin əmri ilə mərasim açıq elan olundu. Şəxsi heyət Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.

Gənc əsgərlər nizami addımlarla sıradan çıxaraq sıranın qarşısında qoyulmuş stollara yaxınlaşdılar. Əllərini silahların üstünə qoyaraq hərbi andı qəbul etməyə başladılar.

Gənc əsgərlər hərbi andı qəbul etdikdən sonra onları təbrik etmək üçün çıxışlar başlandı. İlk olaraq hərbi hissə komandiri çıxış edərək dedi:

- Əziz gənc əsgərlər! Bu gün sizin üçün çox əlamətdar bir gündür. Siz bu gün böyük təntənə ilə hərbi andı qəbul etdiniz. Bu gün, bu an əbədi olaraq sizin yaddaşınıza böyük hərflərlə yazılacaq. İndi gözəl anlarını yaşadığınız bu əlamətdar günü həmişə xoş təəssüratlarla xatırlayacaqsınız.

Vətənə xidmət etmək, onun torpaqlarının keşiyində dayanmaq hər birimizin müqəddəs borcudur. İnanıram ki, siz təlim-məşqlərdə fəal iştirak edəcək, hərbi biliklərə və silahların sirlərinə dərindən yiyələnəcək, daim döyüş hazırlığınızı artıracaqsınız. Silahlı Qüvvələrin Ali Baş Komandanı möhtərəm Prezidentimiz İlham Əliyevin bütün əmr və göstərişlərinə hazır olacaqsınız.

Sonra kapitan Qorxmaz Məmmədquliyev, ehtiyatda olan polkovnik Nuru Səmədzadə, əsgərlərdən Salman Məlikov, Elvin Səlimov, Şahmar Quluyev, Şaiq Əlihüseynli və başqaları da gənc əsgərləri təbrik etdilər, gələcək xidmətdə onlara uğurlar arzuladılar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



# Təlimlər uğurla keçib

**Avqustun 22-də qoşunların döyüş hazırlığı planına əsasən təlim mərkəzilərində tank əleyhinə bölmələrin şəxsi heyətinin intensiv hazırlığı həyata keçirilib.**

Təlim əvvəlcə tank əleyhinə idarə olunan raketlər kompleksinin simulyasiya sinfində keçirilib. Taqım komandiri baş leytenant Hafiz Rəhimov sinfin istifadə qaydaları və məqsədi barədə məlumat verib. Təlim otağında eyni zamanda iki operator döyüş tapşırığını icra edə bilir. Kompüterlər vasitəsilə hədəflərə açılan atəşi və hədəfin məhv edilməsini izləmək mümkündür. Əsas məqsəd tank əleyhinə idarə olunan raketlər kompleksini idarə edən operatorların təcrübəsini yüksəltməkdir.

Təlimin ikinci atış sahəsində 9K111 tank əleyhinə idarə olunan raketlər kompleksindən təyin olunmuş hədəflərə atəş açılıb. Üç hərbi hissənin tank əleyhinə batareyalarının iştirak etdiyi təlimdə şəxsi heyətin döyüş hazırlığı nümayiş etdirilib.

9K111 tank əleyhinə idarə olunan raketlər kompleksi düşmənin vizual müşahidə olunan, 60 km/saat sürətlə hərəkət edən və hərəkətsiz zirehli texnikalarını və tanklarını məhv etmək üçün nəzərdə tutulub.

Tank əleyhinə batareya komandirləri baş leytenant Nahid Nəcəfov və Emin Əhmədov şəxsi heyətin hər bir üzvünün döyüş hazırlığının yüksək səviyyədə olduğunu qeyd ediblər.

Təlim zamanı dəqiq atəş açdıqları üçün əsgərlər Dima Qafuri və Elcan Fərzalıyevə təşəkkür elan olunub.

Növbəti təlim günündə isə polkovnik-leytenant Elbrus Tağıyevin rəhbərliyi ilə tanklarla mübarizə dərsi keçirilib. Dərs 2 istiqamətdə davam edib: səngərdə tank əleyhinə qumbara vasitəsilə tankın məhv edilməsi, açıq ərazidə tankların məhv edilməsi yolları.

Sonda zabit E. Tağıyev təlimdə iştirak edən kursantlar Şöhrət Zeynalov, Elimdar Bayramov, Ceyhun Şirinov, İlham Balaqardaşov, Elmin Nuriyevə və başqalarına təşəkkür elan edib.

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

*30 avqust - Türkiyənin Zəfər bayramı*

# "Türkün mübarizəsi bütün Şərqin mübarizəsidir"

**XX əsrin əvvəllərində dünyanın bir çox ölkələri, o cümlədən Türkiyə ətrafında cərəyan edən mürəkkəb siyasi hadisələr 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanmasına və milli azadlıq hərəkatının inkişafına səbəb oldu. Osmanlı Türkiyəsi də bütün qüvvələrini səfərbər edərək müharibəyə qoşuldu. Bu müharibədə Antanta dövlətləri Türkiyəni tam məğlubiyyətə uğratdı. 1918-ci il oktyabrın 30-da qalib dövlətlərlə Türkiyə arasında "Mudros" adlı təslimçi barışıq sazişi imzalandı. Bu anlaşmaya əsasən Türkiyə parçalanmalı idi və işğalçı ölkələr burada istədiyi şəkildə hegemonluq edə bilərdi. Ölkənin şərqində Ermənistan dövlətinin yaradılması da bu plana daxil idi.**



1919-cu il mayın 15-də yunan qoşunları imperialist ölkələrin köməyi ilə İzmiri işğal etdi. İzmirin işğalından sonra işğalçı dövlətlərin Türkiyəni parçalamaq siyasətinə qarşı ölkədə milli azadlıq hərəkatı başladı. Uzun illər davam edən müharibədən sonra Osmanlı türkləri yenidən özlərində güc taparaq düşmənə müqavimət göstərirdi, lakin bu hərəkat kiçik dəstələr halında həyata keçirildiyi üçün nəticəsiz qalırdı. Mustafa Kamal Paşa məhz belə bir ağır məqamda 1919-cu il mayın 19-da Samsuna gələrək, xalqı həmrəyliyə səslədi və milli hərəkata rəhbərlik etməyə başladı.

O, Birinci Dünya müharibəsində bir sıra uğurlu hərbi əməliyyatlar keçirmişdi. Osmanlı ordusunun ən istedadlı generallarından biri idi. Təslimçiliyi qəbul etməyən müqavimət qüvvələri 1920-ci il aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisinə toplanırlar. Mustafa Kamal Paşa TBMM-in sədri seçilir. Bundan sonra parlament Milli Qurtuluş müharibəsinə start verir. Bu ağır və çətin günlərdə ümumi səfərbərlik elan edilir. Qadın, gənc, uşaq, yaşlı demədən hər kəs orduya yazılır, Vətəni xilas etməyə can atır.

Mustafa Kamal Paşa 1922-ci il avqustun 6-da orduya gizli olaraq müharibəyə hazırlıq tapşırığı verir. Özü isə Akşehirə gələrək komandanları bir araya toplayır. Həmin toplantıda müharibə günü avgustun 26-na təyin edilir. Qərara alınır ki, müharibə Afyonun cənubundan Dumlupınar istiqamətinə doğru hücum halında başlayacaq və sonra meydan müharibəsinə çevrilərək düşmən qüvvələri tamamilə məhv ediləcək. 26 avqust 1922-ci il tarixdə sabah erkəndən, saat 05.30-da topçuların atəşiylə Kocatəpədən Meydan müharibəsi başlayır. Müharibəni Baş Komandan Mustafa Kamal Paşa idarə edirdi. Qəhrəman Türk Ordusu cənubdan, şimaldan hərəkət edərək ildırım sürəti ilə irəliləyir, yunanların müdafiə xəttini yarır. 26-27 avqust gecəsi yunanların silah-sursatı ələ keçirilir. Bir neçə gün içərisində Afyon işğaldan tamamilə təmizlənir, Dumlupınara doğru geri çəkilən düşmən və bütün yunan ordusu məğlub edilir. "Allah, Allah" deyərək düşmən üzərinə gedən türk övladı şəhid düşdüyü yeri düşmənə tapdaq etmədi, özünə Vətən etdi. Öküz arabalarında silah-sursat, əsgərlərə su, çörək daşıyan türk qadını ayağında ayaqqabısı yox, isti havalarda bu ağır yükün altına girir, ac-susuz vuruşan oğullarına kömək edirdi. İsti adyalı qucağındakı körpəsinə deyil, yaralı əsgərin üstünə sərirdi.

Beləcə, uca türk milləti əzmlə, inamla döyüşdü və zəfər qazandı.

Müharibənin sonlarına az qalmış yunanların komandanı Trikopis əsir alınır. Bu arada Kütahya da düşməndən təmizlənir. Baş Komandan Mustafa Kamal Paşa müharibəni idarə etdiyi üçün bu müharibə "Meydan Muharibəsi" adı alır. Minlərlə türk əsgəri, gənci, qadını, qocası şəhid olur bu müharibədə. Amma bir qarış torpaq belə düşmənə güzəşt edilmir.

Azərbaycan o ağır illərdə maddi və mənəvi yardımını Türkiyədən əsirgəməmişdi. Tədqiqatçı Hüseyn Adıgözəlin yazdığına görə, Mustafa Kamal Paşa 1921-ci il martın 17-də, yəni 2-ci İnönü müharibəsindən əvvəl Nəriman Nərimanova məktub ünvanlayaraq maliyyə dəstəyinə böyük ehtiyac duyulduğunu bildirmişdi. N.Nərimanov dərhal büdcədə olan 500 kiloqram qızılı Ankaraya, xeyli miqdarda silah-sursatı da Anadoluya göndərir.

Bütün bunlar qardaşın qardaşa köməyi, vəfa borcu idi. Bunun ən gözəl izahını isə biz Nəriman Nərimanovun 1921-ci il martın 23-də Mustafa Kamal Atatürkə yazdığı məktubda görə bilərik. Türkiyə tərəfinin borcları necə qaytaracağı barədə narahatlıq keçirdiyi bir vaxtda N. Nərimanov yazırdı: "Paşam, türk millətinin bir ənənəsi vardır - qardaş qardaşa borc verməz. Qardaş qardaşın əlindən tutar, biz qardaş xalqlarıq. Hər zaman və hər şəraitdə bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışırıq. İmkanımız çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz bir qardaşın başqa bir qardaşı üçün etmək istədiyindən başqa bir şey deyil".

Qurtuluş Müharibəsi 1922-ci il avqustun 30-da türk millətinin tam qələbəsi ilə başa çatdı. 1923-cü il oktyabrın 13-də Ankara paytaxt elan olundu. Oktyabrın 29-da isə Böyük Millət Məclisində Türkiyə Cümhuriyyəti rəsmən elan edildi. Lozanna sülh konfransında uzun müzakirələrdən sonra Türkiyənin mövcud sərhədləri böyük dövlətlər tərəfindən tanındı. 1934-cü ildə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamal Paşaya rəsmi olaraq "Atatürk" soyadını verdi.

Türkiyənin böyük qurbanlar və dağıntılar bahasına siyasi müstəqillik əldə etməsi onun çoxəsrlik tarixində dönüş nöqtəsi oldu. Türk xalqının milli müstəqillik uğrunda apardığı azadlıq mübarizəsi və imperialist dövlətlər üzərindəki tarixi qələbəsi ilə milli-dünyəvi, müstəqil türk dövləti təşəkkül tapdı. Bu hadisə Şərq xalqlarının milli-azadlıq hərəkatına da güclü təkan oldu. 1922-ci ilin yayında Atatürk demişdi: "Türkiyənin bugünkü mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir".

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# Qəhrəmanlarımız var, olacaq da!

***Tarixən qəhrəmanlarımız olub, olacaq. Onların heç biri unudulan deyil. Tarix buna imkan verməz. Milli qürürumuz da imkan verməz ki, qəhrəmanlarımızı yaddan çıxardaq. Axı onların hər biri öz zamanında torpaqlarımızın yadellilərdən müdafiəsi üçün canından da keçməyə çəkinməyib.***

Dağlıq Qarabağda gedən döyüşlərdə də qəhrəmanlıq göstərən döyüşçülərimiz olub. Azərbaycanın Milli Qəhrəmanları Əlif Haciyevin, Yusif Mirzəyevin, Vəzir Orucovun şücaəti dillər əzbəridir, onlar həmişə ehtiramla xatırlanacaq.

Ramil Səfərov Dövlət bayrağımıza hörmətsizlik edən erməni zabitini öldürdü. Onun xaricdə məhbus həyatı yaşaması ilə mən də barışa bilmirdim. Xalqını, millətini, dövlətini bu səviyyədə sevən bir zabitin azadlığa çıxacağı günü səbirsizliklə gözləyirdim. Elə bilirdim məhbəsdəki zabitimiz mənim doğma qardaşımdır. Möhtərəm Prezidentimiz İlham Əliyev onun azad olunması üçün nələr etmədi?

"Azərbaycan Ordusu" qəzetinin vasitəsi ilə Ramil Səfərova müraciət eləmək istəyirəm: sən vətənsevərliyinlə ermənilərə sübut elədin ki, hər bir azərbaycanlı xalqını, millətini, dövlətini varlığı ilə sevir və heç vaxt xalqının, millətinin, dövlətinin, Bayrağının təhqir olunmasına dözməz. Torpaqlarımızı işğal edənləri də Bayrağmızı təhqir edənin aqibəti gözləyir. Ya üzüsulu ərazilərimizdən çəkilib getməlidirlər, ya da sənin kimi oğullar onlara layiq olduğu cəzanı verəcək!

Sənə xidmətində uğurlar arzulayıram. İnanıram ki, sənin kimi oğullar, sənin kimi zabitlər minlərlədir. Belə ordusu olan dövlət torpaqlarını işğaldan azad etməyə qadirdir.

**Lalə ORUCOVA,
Şəmkir rayonu**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcək

Avqustun 25-dən 28-dək Manama şəhərində (Bəhreyn) "Dəniz minalarına qarşı mübarizə tədbirləri üzrə beynəlxalq təlim-2014" yekun planlaşdırma konfransı, Ştrausberq şəhərində (Almaniya) kütləvi informasiya vasitələri ilə əlaqədar ekspert görüşü, avqustun 26-dan sentyabrın 13-dək isə Qrafenvör şəhərində (Almaniya) "Combined Endeavor-2014" təlimi keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 29-da Tovuz rayonu Ağdam kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və səhra köməkçisi Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Jiri Aberle keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***28 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Sarıcalı, Mərzili, Goranboy rayonunun Tapqaraqoyunlu, Cəbrayıl rayonunun Mehdili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***29 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Şuraabad, Tərtər rayonunun Qızıl Oba kəndləri yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

Polkovnik-leytenant Heydərbəyov Aydın Mirzəhüseyn oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq xidmət edən hərbi qulluqçu Kərimov Taleh Eyvaz oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Azərbaycanın Milli Qəhrəmanı Ruslan Polovinkanın təltif olunduğu "Qızıl ulduz" medalı Ukraynada ailəsinə təqdim edildi





**Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə nazirliyin zabiti polkovnik Abdulla Qurbani avqustun 23-də Ukraynanın Xarkov şəhərinə gedərək Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Ruslan Polovinkanın ailəsinə baş çəkib, qəhrəmanın xatirəsinə həsr olunmuş anma mərasimlərində iştirak edib.**

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AzərTAc-a bildiriblər ki, Azərbaycan nümayəndə heyəti ilə görüşən Xarkov vilayəti qubernatorunun müavini İvan Varçenko qəhrəmanın layiq görüldüyü medalın ailəsinə təqdim olunmasını əlamətdar hadisə kimi dəyərləndirib.

A.Qurbani Azərbaycan qəhrəmanlarından bəhs edən kitablarını vilayət administrasiyasının kitabxanasına hədiyyə edib.

Sonra Xarkov Vilayəti Administrasiyasında ölkəmizin Ukraynadakı səfirliyinin, vilayət icra administrasiyası rəhbərliyinin, Azərbaycan-Ukrayna icması nümayəndələrinin, şəhidin doğmalarının, eləcə də KİV əməkdaşlarının iştirakı ilə anma mərasimi keçirilib.

Vilayət qubernatorunun müavini İvan Varçenko, Azərbaycan-Ukrayna Dostluq Cəmiyyətinin sədri Murad Ömərov, istefada olan polis polkovniki Bəhlul Mustafayev, şəhidin bacısı Tatyana Zelenskaya çıxış edərək Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Belə şərəfli missiyanı yerinə yetirməkdən böyük qürur duyduğunu bildirən polkovnik A.Qurbani qeyd edib ki, Ukrayna xalqı bu torpaq uğrunda həlak olan Azərbaycan oğullarını unutmadığı kimi, xalqımız da öz ukraynalı qəhrəmanını heç vaxt unutmur.

Mərasimdə R.Polovinkanın keçdiyi döyüş yolu haqqında məlumat verilib. Qeyd olunub ki, o, 1991-ci ildə ali hərbi təyyarəçilik məktəbini bitirdikdən sonra gənc leytenant kimi Naxçıvana göndərilmiş, Azərbaycanın milli hərbi hava qüvvələri yarandığı ilk gündən ordumuza könüllü daxil olaraq helikopter eskadrilyasında pilot kimi xidmətə başlamışdı. Qarabağ müharibəsində bir çox hərbi əməliyyatların fəal iştirakçısı olmuş R.Polovinka Qubadlı, Laçın, Ağdərə uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənmişdi. 1992-ci il avqustun 6-da Azərbaycan hərbçiləri Ağdərə rayonunun Kasapet yüksəkliyi yaxınlığında mühasirəyə düşərkən R.Polovinka Mİ-24 helikopterinin heyəti ilə həmin əraziyə üç dəfə uçuş etmişdi. Qəhrəman pilot düşmənin zirehli texnika və canlı qüvvəsini məhv edərək mühasirəni yarmış, yaralıları və şəhidləri oradan çıxarmışdı. Dördüncü uçuşda helikopter düşmən tərəfdən raketlə vurulduqda belə, son anadək döyüş maşınını tərk etməmiş və ekipajın digər heyət üzvləri ilə birlikdə qəhrəmancasına həlak olmuşdu.

Leytenant R.Polovinkaya Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı oxunduqdan sonra polkovnik A.Qurbani Milli Qəhrəmanın "Qızıl ulduz" medalını və ulu öndər Heydər Əliyevin imzası olan vəsiqəni şəhidin anası Qalina Polovinkaya təqdim edib.

Milli Qəhrəmanın valideynləri bu yüksək qiymətə və diqqətə görə dövlətimizin başçısına təşəkkür ediblər.

Hər iki dövlətin bayraqları qarşısında xatirə şəkilləri çəkdirən mərasim iştirakçıları sonra R.Polovinkanın doğulduğu Zimiyov şəhərinə yollanıblar. Onun məzarı üzərinə "Azərbaycanın Mili Qəhrəmanı" sözləri yazılmış və səkkizguşəli ulduz təsvir olunmuş mərmər lövhə vurulub. Məzarın qarşısına Müdafiə Nazirliyi adından qızılgüllər düzülüb, ailəsinə xatirə hədiyyələri təqdim edilib.

Zimiyov Şəhər Administrasiyasının başçısı bu nəcib təşəbbüsə görə minnətdarlığını bildirib.

Azərbaycanın Ukraynadakı səfirliyinin konsulluqlar üzrə katibi Mübariz Hacıyev, Xarkovda yaşayan azərbaycanlılar, şəhidin valideynləri və başqaları çıxış edərək xalqlarımızın tarixi dostluq ənənələrinin bu gün də uğurla davam etdiyini vurğulayıblar.

A.Qurbani bildirib ki, iki xalqın övladı olan Milli Qəhrəman R.Polovinka öz şəhidliyi ilə bu dostluğun əbədi və sarsılmaz olduğunu bir daha sübuta yetirib.



**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 270
Nüsxə 4570